Xalq qəzeti .- 2022.- 6 mart.- S. 5

# Bayramın mübarək, Azərbaycan qadını!

***Xanımların bayramı münasibətilə qələmə aldığımız bu sətirləri bilavasitə Azərbaycan qadınına müraciətlə başlasaq da, əslində bütün dünya xanımlarını nəzərdə tutduq. Çünki bu bayram dünyanın bütün qütblərində, ölkələrində, xanımların yaşadığı, fəaliyyət göstərdiyi ən böyük və ən kiçik yaşayış məntəqələrində də qeyd edilir. Azərbaycan qadınlarına gəlincə isə deməliyik ki, xalqımıza üzağlığı gətirən 44 günlük müharibədəki möhtəşəm qələbəni bizə məhz Azərbaycan qadınının dünyaya gətirib, tərbiyə edib vətənpərvər kimi yetişdirdiyi mərd oğullarımız bəxş ediblər.***

Mən ixtisasca həkiməm. Yəni insanların sağlamlığının keşiyində durmalıyam və dururam. Ancaq insanların sağlamlığının keşiyində duran ən böyük qüvvə analardır. Onlar övladlarını sağlam böyütməklə xalqımıza və dövlətimizə misli görünməyən xidmət göstərirlər. Anaları təbrik edirəm!

Mənim fəaliyyətimin əsas istiqamətlərindən biri müəllimlikdir. Ancaq səmimiyyətlə və qətiyyətlə etiraf edirəm ki, xalqımızın ən böyük müəllimi məhz qadınlardır. Şükür edirəm ki, ölkənin təhsil sistemində çalışanların yarıdan çoxu xanım müəllimlərdir. Qadın müəllimlərimizi təbrik edirəm!

Təvazökarlıqdan kənar olsa da, deyim ki, mən daim ölkənin ictimai-siyasi həyatındakı proseslərin içərisində olmuşam. Ona görə yaxşı bilirəm ki, bu gün Azərbaycan qadını ölkənin ictimai-siyasi həyatında, sözün həqiqi mənasında, aparıcı qüvvələrdən birinə çevrilmişdir. Bu gün Azərbaycan qadını ölkənin Birinci vitse-prezidentidir, nazirdir, deputatdır, səfirdir, siyasətçidir, dövlət qulluqçusudur. Ölkəmizin ictimai-siyasi həyatına xüsusi töhfələr verən xanımlarımızı təbrik edirəm!

Tale elə gətirib ki, mən hələ gənclik illərimdən etibarən elm mühitində fəaliyyət göstərmişəm. Ona görə də yaxşı bilirəm ki, bu gün Azərbaycan elminə xidmət edənlərin böyük əksəriyyəti xanım alimlərimizdir. Elm sahəsindəki xanım həmkarlarımı təbrik edirəm!

Mən möhtərəm dövlət başçımızın şəhid anaları ilə görüşlərində nümayiş etdirdiyi hörməti, ehtiramı, səmimiyyəti görəndə, onlara göstərilən diqqətin miqyasının şahidi olanda özümü xoşbəxt hiss etmişəm. Bu qadın bayramı günündə şəhid anaları qarşısında baş əymək istəyim də elə xoşbəxtlikdir.

Biz öz liderimizin möhtəşəm rəhbərliyi, xalqımızın misli görünməmiş qətiyyəti və ordumuzun



dünya hərb tarixinə düşən rəşadəti nəticəsində ərazi bütövlüyümüzü bərpa etmiş və 30 il davam edən münaqişəyə son qoymuşuq. Ancaq dünyanın bir çox yerlərində müharibə və münaqişələr davam edir. Çox təəssüf ki, həmin münaqişələrdən biri də bizim dostumuzla müttəfiqimiz arasındadır. Ona görə də bu Beynəlxalq Qadınlar Günündə münaqişədə olan bütün ölkələrin xanımlarına, xüsusən, analara səbir, dözüm, təmkin diləyir, həmin ölkələrin də tezliklə sülhə, sabitliyə qovuşmasını arzulayıram.

Bayramın mübarək, Azərbaycan qadını!

Bayramınız mübarək, dünya xanımları!

İnanıram ki, sizin birlikdə nümayiş etdirdiyiniz həmrəylik anaların göz yaşını təbəssümlə, körpə hıçqırtılarını isə könül açan gülüşlə əvəz edəcək. Bu, mütərəqqi düşüncəli bütün kişilərin arzusudur. Bayramınız mübarək!

***Əhliman ƏMİRASLANOV,***
***akademik, Əməkdar elm xadimi***